# Naxçıvanın Cənubi Azərbaycanla ədəbi-mədəni və elmi əlaqələri

**Sahab Əliyeva**
AMEA Naxçıvan Bölməsi. Azərbaycan.
E-mail: sahabaliyeva89@gmail.com

**Annotasiya.** Məqalədə Naxçıvanın Cənubi Azərbaycanla əlaqələri tarixinə ümumi nəzər yetirilmiş, sovet dönəmində və müstəqillik illərində Cənubi Azərbaycanla ədəbi-mədəni və elmi əlaqələrin xarakteri, mahiyyəti aşkara çıxarılmış, səciyyəvi xüsusiyyətləri müəyyənləşdirilmişdir. Naxçıvan ərazi baxımından Cənubi Azərbaycanla yaxın olduğu üçün 1828-ci il Şimali Azərbaycanın Rusiyaya ilhaqından sonra Arazın o tayı ilə əlaqələrini tamamilə itirməmişdir. Naxçıvan və Cənubi Azərbaycan arasında əlaqələrin inkişafı ədəbi, elmi mühitə də öz təsirini göstərmiş, milli-mənəvi bütövlük, vahid Azərbaycan ideyası işığında çoxsaylı bədii əsərlər, məqalələr, oçerklər, kitab və monoqrafiyalar qələmə alınmış, şair və yazıçılarımızın, elm adamlarımızın bu istiqamətdəki fəaliyyəti sayəsində əlaqələrimiz daha da genişlənmiş, bu sahədə mətbuat və televiziyanın da müstəsna rolu olmuşdur. Məqalədə Naxçıvan və Cənubi Azərbaycan arasında ədəbi-mədəni və elmi əlaqələri göstərən fakt və mənbələr üzə çıxarılaraq araşdırılmış, bütün bunlar Cənub mövzusuna olan həssas münasibətin və bu məsələnin aktuallığının göstəricisi kimi xarakterizə olunmuşdur.
**Açar sözlər:** Naxçıvan, Cənubi Azərbaycan, ədəbi-mədəni və elmi əlaqələr, Cənub mövzusu, milli-mənəvi bütövlük

**Məqalə tarixçəsi:** göndərilib – 17.01.2022; qəbul edilib – 27.01.2022

# Literary-cultural and scientific relations of Nakhchivan with South Azerbaijan

**Sahab Aliyeva**
Nakhchivan Branch of ANAS. Azerbaijan.
E-mail: sahabaliyeva89@gmail.com

**Abstract.** The paper gives a general review of the history of relations between Nakhchivan and South Azerbaijan, reveals the nature and essence of literary, cultural, and scientific relations with South Azerbaijan during the Soviet period and the years of independence, identifies their characteristic features. Due to the geographical proximity of Nakhchivan to South Azerbaijan, ties with the other coast of Araz after the annexation of Northern Azerbaijan by Russia in 1828 have not been wholly lost. The development of relations between Nakhchivan and South Azerbaijan influenced both the literary and the scientific environment. Many literary works, articles, essays, books, and monographs have been written in the light of the national-spiritual integrity idea and unity of Azerbaijan; our relations have expanded thanks to the activity of our poets, writers, scientists in this direction; the media and television also played an exceptional role in this area. The paper reveals and studies facts and sources showing the literary, cultural and scientific relations between Nakhchivan and South Azerbaijan; all that is described as an indicator of a sensitive attitude to the Southern theme and the relevance of these issues.
**Keywords:** Nakhchivan, South Azerbaijan, literary,cultural and scientific relations, the Southern theme, national and spiritual unity

**Article history:** received − 17.01.2022; accepted − 27.01.2022

## Giriş / *Introduction*

1828-ci il Türkmənçay Müqaviləsi ilə Azərbaycanın tarixi torpaqları rus və fars işğalçıları arasında bölüşdürüldü. Bu vaxtdan etibarən ikiyə parçalanan Azərbaycanın ən ağrılı, nisgilli yaralarından birinə çevrilən Cənubi Azərbaycan haqqında çoxsaylı bədii əsərlər, publisistik, həmçinin elmi məqalə və oçerklər, monoqrafiyalar yazıldı. Həmin mövzu 1828-ci ildən bu günədək Azərbaycan ədəbi və elmi mühitində aktual bir mövzu olaraq qalmaqdadır. Şimali Azərbaycanda Cənubi Azərbaycan mövzusuna həsr olunmuş bədii və elmi əsərlərin tədqiqi ədəbiyyatşünaslıq elmimizin qarşısında duran vacib məsələlərdən biridir. Bu, geniş və çoxşaxəli bir mövzudur. Həmin mövzunun şaxələrindən biri də Cənubi Azərbaycanın Naxçıvanın ədəbi-mədəni və elmi mühiti kontekstində tədqiq olunmasıdır.

## Əsas hissə / *Main Part*

Naxçıvan ərazi baxımından Cənubi Azərbaycanla yaxın olduğu üçün Şimali Azərbaycanın Rusiyaya ilhaqından sonra Arazın o tayı ilə əlaqələrini tamamilə itirməmişdir. Çar Rusiyası dövründə İranla ciddi rejimli sərhəd olmadığı üçün o taylı-bu taylı inqilabçı, tacir, ziyalı, şair, yazıçı, publisist, ruhani və qəsbkarların Naxçıvana və Cənubi Azərbaycanın müxtəlif kənd və şəhərlərinə gediş-gəlişi çox da çətin olmamışdır. Məmməd Tağı Sidqi, Məmməd Səid Ordubadi, Nəsrulla, Fərəculla, Məmmədhüseyn və Abdulla Şeyxov qardaşları, Əliqulu Qəmküsar (Nəcəfov), Rzaqulu Nəcəfov, Qurbanəli Şərifzadə, Hüseyn Cavid, Mirbağır Mirheydərzadə, Ağa Məhəmməd Əkbərov (Ərbab), Əkbər Abbasov, Mirzə Ələkbər Məmmədquluzadə, Mirzalıbəy Bektaşi və başqa tərəqqipərvər ziyalılarımız Cənubi Azərbaycanda maarif və mədəniyyətin yayılmasına, demokratik ruhlu mətbuat və ədəbiyyatın yaranmasına, məşrutə hərəkatına maddi və mənəvi dəstək verməklə daha geniş miqyasda inkişafına təkan vermişlər. "Naxçıvan demokratları iki əsrin ayrıcındakı dövrdə dünyagörüşcə nisbətən məhdud olsalar da, əsrin əvvəllərinin fırtınası onları ayıltmışdı. 1907-1911-ci illərdə Cənubi Azərbaycanda azadlıq hərəkatı başlanarkən onların hamısı bu hərəkatın müvəffəqiyyətlə genişlənməsinə var qüvvələri və şəxsi iştirakları ilə kömək etməyə çalışırdılar" [5, s.15]. Bu haqda Məmməd Səid Ordubadinin həyatının 1872-1920-ci illərini əhatə edən "Həyatım və mühitim" memuarında mühüm faktlar toplanmışdır. Memuarda hələ M.T.Sidqinin məktəbində oxuduğu illərdə buradakı mövcud vəziyyəti təsvir edən Ordubadi yazır: "Bu məktəbdə inqilabi bir ruh var idi. Məktəbə daxil olan bu inqilabi ruh Rusiya və Qafqaz yolu ilə deyil, İran yolu ilə daxil olurdu. Müəllim Sidqi Misirdə "Pərvəriş" və sair qəzetləri İran təriqi ilə gətirirdi. Bunlardan əlavə, Təbriz ilə ticarət edən Əsgər Hüseynzadə oradan əcnəbi qəzetləri gətirib məktəbə verirdi. Məktəbin inqilabçılığı İran azadlığı üzərində başlamışdı" [3, s.42]. Türkiyədə və İranda başlamış inqilabların Ordubad əhalisinin avamlığına heç bir müsbət təsirinin olmaması, xalqın hələ də köhnə qayda-qanunlarla yaşaması, üzləşdiyi təqiblər səbəbindən Culfaya köçməyə məcbur qalan Ordubadi burada tərəqqipərvər ziyalıların köməyilə tezliklə inqilabi mübarizəyə qoşulur. Qeyd edək ki, Ordubadinin memuarında İran inqilabında iştirak edən, inqilaba maddi və mənəvi dəstək olan ziyalılarımız – Baxşəli ağa Şahtaxtlı, Ağaməhəmməd Hüseyn İrəvanlı, Nəsrulla Şeyxov, Nağı İsmayılov, Əliqulu Qəmküsar və başqaları haqqında da məlumatlar verilmişdir. Memuarda, həmçinin İran inqilabına yardım edən cəmiyyət haqqında söz açan Ordubadi yazır: "Bütün İran ziyalıları və İran inqilabçıları burada (İran inqilabına yardım edən cəmiyyətdə – S.Ə.) toplanmağa başladı. Məşhur yazıçılardan Mirzə Cəbrayıl Fətəliyev

ilə burada tanış olduq. Vaxtımın çoxunu İran tərəfində keçirirdim... Mən burada İran inqilabı ilə yaxından tanış olur və ən ciddi işlərdə iştirak edirdim. Mən "Dumanlı Təbriz" adlı romanımın materiallarını toplamaqla bərabər, "Sevgilər" adlı mənzum əsərimi də Culfada yazırdım. Təbrizə tez-tez gedir və İran inqilabçıları ilə əlaqə saxlayırdım. Doqquzuncu illərdəki Təbriz inqilabı, demək olar ki, tamamilə gözümün qabağında gedirdi" [3, s.51]. Ordubadinin "Dumanlı Təbriz" romanında da naxçıvanlı ziyalıların – Nəsrulla Şeyxov, Əliqulu Qəmküsar, Mirzə Ələkbər Məmmədquluzadə və başqalarının inqilabda iştirakı haqqında zəngin məlumatlar yer alıb. Romanda yer alan həmin məqamlara diqqət yetirək: "Nəsrulla Şeyxov Culfada İran inqilabı Komitəsinin üzvlərindən idi. İnqilabi adı Cəmşid idi. İnqilabdan sonra Rəşt şəhərində İran kommunist firqəsinin məsul katibi vəzifəsini daşıyırdı. Kiçik xanın Rəşt üzərinə hücumu zamanında Şeyxov yoldaş öldürüldü" [4, s.61], "Teleqram İran İnqilab Komitəsinin Culfa şöbəsi üzvlərindən Baxşəli ağa Şahtaxtlı tərəfindən vurulmuşdu" [4, s.145]. "Bu gün qafqazlılardan "Molla Nəsrəddin" məcmuəsi redaktorunun qardaşı Mirzə Ələkbər Məmmədquluzadəni, bir də Hacı Mirzə Ələsgər Qarabağlını həbs etdilər" [4, s.173], "Heç gözlənilmədən Əmir Həşmət, İran inqilabçılarından Əndəlib Qəmküsar təxəllüslü şair Mirzə Əliqulu və sairələri gəldi" [4, s.174], "Fəal yoldaşlarımız, bir sözlə, Culfada İran inqilabında çalışanların hamısı həbs olundu, Rzaqulu Nəcəfov, Tağı Yusifov, Ağa Məhəmmədhüseyn Hacıyev, Baxşəli ağa Şahtaxtlı, Nəsrulla Şeyxov və başqaları həbs edilib haman gecə Naxçıvana göndərildi" [4, s.210]. Belə nümunələrin sayını artırmaq da olar. Akademik İsa Həbibbəyli də tədqiqatlarında İran inqilabında iştirak edən naxçıvanlı ziyalılar, xüsusilə də Mirzə Cəlilin qardaşı Ələkbər Məmmədquluzadə haqqında əhəmiyyətli məlumatlar vermişdir: "Qorxmaz və cəsarətli olduğuna görə az sonra müxtəlif ictimai-siyasi hərəkatlarda fəal iştirak etmişdir. Məşrutə hərəkatında Səttarxanla birgə mübarizə aparmışdır. Mənbələrdə onun adı "İran inqilabçısı", "Cənubi Azərbaycanda alovlanan milli-azadlıq hərəkatının rəhbərlərindən biri, Səttarxanın yaxın silahdaşı", "Ən məşhur Təbriz mücahidlərindən biri" kimi səciyyələndirilmişdir. O, məşrutə zamanı tutulub həbs edilmiş, C.Məmmədquluzadə Ələkbəriçox çətinliklə xilas edə bilmişdi. Deyilənlərə görə Mirzə Ələkbər ayaqlarında qandal Təbrizdən Naxçıvana gətirildiyi zaman bir fransız səyyahı onu görmüş və çar əsgərləri tərəfindən əhatə olunmuş halda şəklini çəkib öz dəftərinə yazmışdır" [2, s.41]. Eyni zamanda 1921-ci ildə "Molla Nəsrəddin" jurnalını Təbrizdə nəşr etdirmək üçün Cəlil Məmmədquluzadəyə kömək edən naxçıvanlılar sırasında "Cənubi Azərbaycandakı azadxah qüvvələrlə yaxın olan, M.Ş.Xiyabanini şəxsən tanıyan" [2, s.321] Ə.Məmmədquluzadə daha böyük əmək sərf etmiş, deyilənlərə görə, Ş.M.Xiyabaninin özü "C.Məmmədquluzadəni Təbrizə aparmaq üçün Mirzə Ələkbər Məmmədquluzadəni Şimali Azərbaycana göndərmişdi" [1, s.211]. Həmçinin, "Ölülər" əsərinin Təbrizdə tamaşaya qoyulmasında Naxçıvan teatrının əsas təşkilatçılarından biri olan Böyükxan Naxçıvanlının, Cənubi Azərbaycanın tanınmış maarifçi ziyalılarından olan Hacı Məhəmməd Naxçıvaninin böyük rolu olmuş, tamaşa naxçıvanlı Ələkbər Abbasovun kirayə etdiyi binada nümayiş olunmuşdur. Bütün bunlar naxçıvanlıların Cənubi Azərbaycanın ictimai-siyasi həyatı ilə həmişə maraqlanması və bu proseslərin fəal iştirakçıları olmasını bir daha sübut edir.

1920-ci ildə Azərbaycanda sovet hakimiyyətinin elan olunması nəticəsində Sovet-İran sərhədlərinin möhkəmləndirilməsi onsuz da ayrı salınmış bir xalqın Arazın ayrı-ayrı taylarında qalan hissələrinin ədəbi-mədəni əlaqələrində bir durğunluğa gətirib çıxardı. Azərbaycanın digər regionlarında və paytaxt Bakıda olduğu kimi, İranla sərhəddə yerləşən Naxçıvanda da Cənubi Azərbaycanla ədəbi-mədəni əlaqələrə qadağalar qoyuldu. Lakin bu qadağalara baxmayaraq, Naxçıvanın coğrafi mövqeyi sovet dövründə burada Cənubi Azərbaycanla bəzi əlaqələrin reallaşmasına imkan vermişdir. 1921-ci ildə inqilabçı şair Əbülqasım Lahutinin qısa müddət Naxçıvanda yaşaması, ziyalılarla tanış olması, hətta bəzi şeirlərini burada yazması, sonralar şərqşünas kimi məşhurlaşan Mübariz Əlizadənin Arazı adlayaraq Naxçıvana gəlib burada orta təhsilini başa vurması, məşhur aktyor, təbrizli Səməd Mövləvinin Naxçıvana köçərək teatr-

da fəaliyyət göstərməsi, Naxçıvanda məhkəmə sistemində işləyən İbrahim Şəbüstərinin 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji qurultaya nümayəndə göndərilməsi, 1925-1928-ci illərdə fəaliyyət göstərən Naxçıvanın Tədqiq və Tətəbbö Cəmiyyətinin üzvü, Cəlil Məmmədquluzadənin "möhtərəm ədib yoldaşımız" adlandırdığı Qulamrza Paşazadənin Naxçıvanda Azərnəşrin ilk kitab mağazasının təşkilindəki rolu və "Zəhmət" məktəbindəki pedaqoji fəaliyyəti, Azərbaycan Milli hökuməti süquta uğradıqdan sonra 1946-cı ildə Naxçıvana keçib qısa müddət burada qalan Seyid Cəfər Pişəvəri və digər silahdaşlarının yerli ziyalılarla tanışlığı və söhbətləri, 1964-1970-ci illərdə Araz Su Elektrik Stansiyasının tikilişi zamanı və 1971-ci ildə istifadəyə veriləndə o taylı-bu taylı ziyalıların da görüşmə imkanı əldə etməsi, əslən Cənubi Azərbaycandan olub bu taya keçən bəzi ziyalıların Naxçıvanda elm, təhsil, mədəniyyət və digər sahələrdə xidmət göstərmələri və s. sovet dönəmində Naxçıvanın Cənubi Azərbaycanla əlaqələrinin müəyyən təzahür formaları idi.

1991-ci ildə Azərbaycan rus imperiyasının caynağından xilas olub öz müstəqilliyini əldə etdikdən sonra Naxçıvanın Cənubi Azərbaycanla ədəbi-mədəni və elmi əlaqələri yeni mərhələyə qədəm qoydu. Bu əlaqələrin dirçəlməsi və inkişafını təmin edən əsas faktorlar bunlardır:

1. Müxtəlif poeziya məclisləri və elmi konfranslarda Naxçıvan və Cənubi Azərbaycan şair və yazıçılarının, alimlərinin iştirakı.

2. Cənublu söz sənətkarları və alimlərin Naxçıvan Yazıçılar Birliyi, Naxçıvan Dövlət Universiteti və AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutu, Əlyazmalar Fondu, Naxçıvanın bədii söz ustaları və elm adamlarının isə Təbriz Universiteti, Təbriz Mərkəzi Kitabxanası və Cənubi Azərbaycanın müxtəlif anadilli mətbuat orqanları ilə əməkdaşlığı.

3. Cənubi Azərbaycan və Naxçıvanda çap olunan qəzet, jurnal, elmi toplu və kitablarda hər iki tərəfin yaradıcı şəxslərinin ədəbi, bədii, publisistik və elmi yazılarının dərc olunması.

4. Cənubi azərbaycanlı iddiaçıların Naxçıvan Dövlət Universiteti və AMEA Naxçıvan Bölməsində fəaliyyət göstərən Dissertasiya Şuralarında filologiyanın müxtəlif mövzularında fəlsəfə doktorluğu dissertasiyalarının müzakirəsi və müdafiəsinin təşkili.

5. Cənubi Azərbaycanın tanınmış elm, ədəbiyyat və mədəniyyət xadimlərinin Naxçıvana səfərləri, onlarla keçirilən görüşlər və fikir mübadiləsi.

6. Naxçıvanda Cənubi Azərbaycan ədəbiyyatı, mətbuatı, Azərbaycan dilinin cənub qolu mövzularında elmi tədqiqat işlərinin aparılması.

7. İran İslam Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş konsulluğunun Mədəniyyət atteşesinin təşəbbüsü ilə Naxçıvanda keçirilən ədəbi-mədəni və elmi tədbirlər.

8. Naxçıvanın elm və ədəbiyyat xadimlərinin Cənubi azərbaycanlı həmkarları ilə dostluğu, görüşləri və yazışmaları.

Yuxarıda da qeyd etdiyimiz kimi, müstəqillik qazandıqdan sonra ədəbi-mədəni əlaqələrimiz daha da genişlənmiş, müxtəlif poeziya məclislərində, konfranslarda Naxçıvan və Cənubi Azərbaycan şairləri və elm adamlarının iştirakı əlaqələrimizin yaranmasında böyük rol oynamışdır. 1991-ciil fevralın 2-dəƏləmdarda keçirilən poeziya məclisində Naxçıvan ədəbi mühitinin bir çox nümayəndəsinin iştirakı, 1992-ci ildə Mərənd, Təbriz şəhərlərində keçirilən poeziya məclisində iştirak, 2005-ci ildə naxçıvanlı 12 şairin Təbriz şəhərinə səfəri, 2006-cı ildə M.Şəhriyarın 100 illik yubileyi ilə əlaqədar keçirilən tədbirdə iştirak, 2007 və 2009-cu illərdə Urmiya, Təbriz və Məşhəd şəhərlərində keçirilən "II İmam Rza beynəlxalq şeir festivalı"nda iştirak Naxçıvan və Cənubi Azərbaycan arasında ədəbi əlaqələrin inkişafında müstəsna rol oynamışdır. Ədəbi-mədəni və elmi əlaqələrimizin inkişafında 1998-ci ildə Təbrizdə əvvəlcə qəzet, sonra isə jurnal formasında dərc olunan "Körpü"nün mühüm rolu olmuş, Naxçıvan ədəbi-elmi mühitinin bir çox nümayəndəsinin şeirləri, məqalələri burada dərc olunmuşdur. Naxçıvan elmi mühitinin tanınmış siması, ədəbiyyatşünas alim, prof. Əsgər Qədimov müxtəlif illərdə bu jurnalın naxçıvanlı müxbiri kimi fəaliyyət göstərmiş, müxtəlif məzmunlu məqalələrlə jurnalın səhifələrində çıxış etmişdir. Həmçinin jurnalda Naxçıvan mühitinin tanınmış simalarının şeirləri, alimlərimi-

zin məqalələrinin dərc olunması Naxçıvanın Cənubi Azərbaycanla ədəbi- mədəni və elmi əlaqələrinin yaranmasına qiymətli töhfədir. Əsgər Qədimov bu gün də Cənubi Azərbaycanla bağlı tədqiqatlarını davam etdirir, alimin "Təbriz mətbuatı tarixindən: "Dədə Qorqud" və "Koroğlu" jurnalları ədəbi-tarixi yaddaşın işığında" monoqrafiyası da bu istiqamətdədir.

Bu illərdə Cənubi Azərbaycanla əlaqələrimizin yaranmasında akademik İsa Həbibbəylinin fəaliyyəti xüsusi olaraq qeyd olunmalıdır. Naxçıvan Dövlət Universitetinə rəhbərlik etdiyi illərdə Cənubi Azərbaycanla əlaqələrimizin inkişafında onun müstəsna rolu olmuş, dəfələrlə İran İslam Respublikasına səfər etmiş, İran mətbuatında müxtəlif məzmunlu məqalələrlə çıxış etmiş, Naxçıvan Dövlət Univesitetinin Təbriz universitetləri ilə elmi əməkdaşlığının yaranmasında böyük rol oynamışdır. Elmi tədqiqatlarında Şəhriyarın yaradıcılığına geniş yer verdiyinə görə, 2015-ci ildə Təbrizdə "Məhəmmədhüseyn Şəhriyar mədəniyyət ordeni" ilə təltif olunmuşdur. 2000-ci ildə alimin "Şəhriyar dünyası" kitabının Tehranda çap olunması, "Ustad Məhəmmədhüseyn Şəhriyar" albom-monoqrafiyasının Bakıda nəşr olunması onun Şəhriyar yaradıcılığına, ümumilikdə isə Cənubi Azərbaycan ədəbiyyatına olan dərin sevgisinin təzahürüdür. Əlaqələrimizin yaranmasında Fərman Xəlilovun xidmətləri də vurğulanmalıdır. Alim İran İslam Respublikasında dəfələrlə səfərdə olmuş, ədəbi-mədəni və elmi əlaqələrimizin inkişafında müstəsna xidmət göstərmiş, Naxçıvan Dövlət Televiziyasında Cənubi Azərbaycan tamaşaçıları üçün nəzərdə tutulan "Ayrılıq" və "Axtarış" verilişləri üçün İrandan göndərilən məktubları tərcümə etməklə bərabər, bu verilişin fəal iştirakçılarından biri olmuşdur. Mətbuatda, elmi toplu və jurnallarda Cənubi Azərbaycanın Naxçıvan ədəbi mühiti üçün yeni olan bir çox nümayəndələri haqqında məqalələrlə çıxış etmiş, Azərbaycan klassiklərinin bir çoxunun kitablarını Təbriz Mərkəzi Kitabxanasına hədiyyə etmişdir. Cənubi Azərbaycanın Naxçıvanla ədəbi-mədəni, elmi əlaqələrinin bu gün də davam etdirilməsində alimin xidmətləri böyükdür.

Ədəbi əlaqələrimizin inkişafı istiqamətində atılan daha bir addım isə Naxçıvan və Cənubi Azərbaycan şairlərinin şeirlərinin yer aldığı almanaxların nəşr olunmasıdır. Belə ki, "Dostlar töhfəsi", "Səhər nəğmələri", "Çiçəklənir baharımız" almanaxları və Naxçıvan jurnalının 6-cı sayı bu istiqamətdə hazırlanmış ən mühüm nəşrlərdəndir. Bundan başqa, sovet hakimiyyəti və sonrakı illərdə "Şərq qapısı" qəzetində Təbriz, Urmiya şairlərinin şeirlərinin nəşr olunması, müxtəlif alimlərimizin bu istiqamətdə yazdıqları elmi-publisistik məqalələri, eyni zamanda İranda nəşr olunan qəzetlərdə Naxçıvan şair, yazıçı və alimlərimizin iştirakı, Naxçıvan Dövlət Universitetində müxtəlif illərdə M.Şəhriyara həsr olunmuş 4 elmi konfransın keçirilməsi və materiallarının çap olunması ədəbi-elmi əlaqələrimizin inkişafına qiymətli töhfədir.

Cənub mövzusu ədəbi və elmi mühitdə geniş səpkidə əks olunsa da, bu mövzunun kütləvi təbliğat vasitəsi olan televiziya ilə işıqlandırılması, bu məqsədlə Naxçıvan televiziyasında "Ayrılıq", "Axtarış", "Cənubdan səslər", "Təbrizə gedən yollar", "Yurdumuz, yurddaşlarımız" verilişlərinin hazırlanması Naxçıvan-Cənubi Azərbaycan əlaqələrinin inkişafında ən uğurlu addımlardan olmuşdur. 1988-ci ilin sentyabrından Naxçıvan televiziyasında nümayiş etdirilən "Ayrılıq" bədii-publisistik proqramı o taylı-bu taylı Azərbaycanın mənəvi birliyinə xidmət etmişdir. Titrində sərhəd dirəkləri və tikanlı məftillər, arxa planında isə Araz çayı təsvir olunan, Yaqub Zurufçunun "Ayrılıq" mahnısı ilə müşayiət olunan proqram o tayla bu tay arasında körpü yaratmış, Cənubi Azərbaycanın bir çox bölgəsində maraqla izlənmiş, televiziyanın ünvanına bir çox məktublar gəlməyə başlamışdır. Aparıcılığını yazıçı-publisist Hüseyn Əsgərovun həyata keçirdiyi bu proqramın 1989-cu ilin 31 dekabrında bir xalqı ikiyə bölən imperiya zəncirlərinin qırılmasında mühüm rolu olduğu kimi, sərhəd dirəklərinin sökülməsi anı da məhz bu verilişin reportajı kimi lentə alınmışdır. Uzun illərin ayrılığından sonra ilk dəfə 1990-cı ilin 21 mart tarixində min nəfər naxçıvanlı Araz üzərindən keçərək İrana daxil olmuşdur. Sevindirici haldır ki, min nəfərin arasında Naxçıvan ədəbi mühitinin görkəmli nümayəndələri – İsa Həbibbəyli, Əliyar Yusifli, Muxtar Qasımzadə, Həmid Arzulu, Həsən Ağa-

yev, Hüseyn Əsgərov da olmuşdur. Məhz bu tarixi andan aldıqları təəssürat sonradan sadaladığımız şəxslərin bir çoxunun yaradıcılığında da öz əksini tapmışdır. Bu tarixi gündə illərlə bir-birindən ayrı düşmüş doğmalar, qohumlar bir-birinə qovuşmuş, bu qovuşmada "Ayrılıq" verilişinin də mühüm rolu olmuş, bu verilişə ünvanlanan məktublar, müraciətlər sayəsində tarixi missiya uğurla yerinə yetirilmişdir.

Araşdırmalardan aydın olur ki, müstəqillik illərində Naxçıvanla Cənubi Azərbaycan arasında ədəbi-mədəni və elmi əlaqələrin yaradılması və inkişaf etdirilməsində şair və yazıçılardan Hüseyn Razi, Vaqif Məmmədov, Asim Yadigar, Hüseyn Əsgərov, Həmid Arzulu, ədəbiyyatşünas və dilçilərdən akademik İsa Həbibbəyli, Yavuz Axundlu, Əsgər Qədimov, Fərman Xəlilov, Hüseyn Həşimli, Qalibə Hacıyeva, Xanəli Kərimli, Əbülfəz Əzimli, Nəzakət İsmayılova və başqalarının mühüm xidmətləri olmuşdur.

## Nəticə / *Conclusion*

Bütün bunları yekunlaşdırıb deyə bilərik ki, Naxçıvan və Cənubi Azərbaycan arasında əlaqələr hər zaman mövcud olmuş, milli-mənəvi bütövlük, vahid Azərbaycan ideyası işığında çoxsaylı bədii əsərlər, məqalələr, oçerklər, kitab və monoqrafiyalar qələmə alınmış, şair və yazıçılarımızın, elm adamlarımızın bu istiqamətdəki fəaliyyəti sayəsində əlaqələrimiz daha da genişlənmiş, bu sahədə mətbuat və televiziyanın da müstəsna rolu olmuşdur. Bütün bunlar Cənub mövzusuna olan həssas münasibəti və bu məsələnin aktuallığını göstərməklə bərabər, Cənubi Azərbaycanla əlaqələrimizin daha geniş səpkidə öyrənilməsini, hərtərəfli və sistemli şəkildə tədqiq olunmasını da şərtləndirir.

## Ədəbiyyat / *References*


1. Axundov N. "Molla Nəsrəddin" jurnalının nəşri tarixi. Bakı: Azərnəşr, 1959.
2. Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Naxçıvan: Əcəmi, 2009.
3. Ordubadi M.S.  Həyatım və mühitim. Naxçıvan: Əcəmi NPB, 2012.
4. Ordubadi M.S. Dumanlı Təbriz. I kitab. Bakı: Yazıçı, 1985.
5. Saraçlı M. Naxçıvan ədəbi mühitindən. Bakı: BDU, 2007..


# Литературно-культурные и научные связи Нахчывана с Южным Азербайджаном

**Сахаб Алиева**
Нахчыванский отдел НАНА. Азербайджан.
E-mail: sahabaliyeva89@gmail.com

**Резюме.** В статье дается обзор истории связей Нахчывана с Южным Азербайджаном, раскрывается характер и сущность литературно-культурных и научных связей с Южным Азербайджаном в советский период и годы независимости, выявляются их специфические черты. Из-за своей территориальной близости к Южному Азербайджану Нахчыван не потерял полностью связи с другой стороной Аракса после присоединения Северного Азербайджана к России в 1828 году. Развитие связей между Нахчываном и Южным Азербайджаном оказало свое влияние и на литературную, научную среду. В свете идеи национально-духовной целостности, единого Азербайджана были написаны многочисленные художественные произведения, статьи, очерки, книги и монографии. Благодаря деятельности

наших поэтов и писателей, ученых в этом направлении наши связи еще более расширились, исключительную роль в этой области также сыграли пресса и телевидение. В статье были выявлены и исследованы факты и источники, указывающие на литературно-культурные и научные связи между Нахчываном и Южным Азербайджаном, все это было охарактеризовано как показатель чуткого отношения к Южной теме и актуальности этого вопроса.

**Ключевые слова:** Нахчыван, Южный Азербайджан, литературно-культурные и научные связи, тема Юга, национально-нравственная целостность